


# Naftalan dövlət büdcəsindən subsidiya almayan azsaylı şəhərlərdəndir

## *Bu, sağlamlıq turizminin inkişafı ilə bağlıdır*



İqtisadiyyatın gəlirli sahələrindən biri də turizmdir. Cəmiyyətdə ictimai rifah və mədəniyyətin, eləcə də insanların həyat səviyyəsinin yüksəlməsində turizm əvəzsiz rol oynayır. Bu baxımdan son illər ölkəmizdə turizmin inkişafı ilə bağlı görülən işlər, qəbul olunan dövlət proqramları, eləcə də mərkəzi və regional səviyyələrdə həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır.

Azərbaycanda turizm ehtiyatlarından səmərəli istifadə edilməsi siyasəti uğurla davam etdirilir. Bu sahədə mövcud olan problemlərin mərhələlər üzrə həllinə nail olunması onu deməyə əsas verir ki, ayrı-ayrı sahələr üzrə qazanılan uğurlar ölkədə turizmin inkişafına geniş yol açmışdır. Xüsusilə regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş proqramlar ölkənin, o cümlədən turizmin inkişafı üçün də geniş imkanlar yaratmışdır. 2004-cü ildən başlayan və bu gün də davam edən regionların sosial-iqtisadi inkişafı bütövlükdə ölkə iqtisadiyyatının şaxələnməsi siyasətini təmin etməklə yanaşı, qeyri-neft sektorunun inkişafına da güclü təkan vermişdir. Nəticədə turizm infrastrukturunun inkişaf etdirilməsi və turizm xidmətlərinin genişləndirilməsi, regionlarda beynəlxalq standartlara cavab verən turizm obyektlərinin yaradılması sürətlənmişdir. İndi bölgələrimizdə elə istirahət məkanları var ki, onların adı dünya şöhrətli turizm məkanları ilə bərabər çəkilir.

Belə məkanlardan biri də Naftalandır. Son illər burada həyata keçirilən böyük infrastruktur layihələri şəhərin əvvəlki şöhrətini qaytarmaqla yerli və xarici ölkə vətəndaşlarının maraq və diqqətini cəlb etməyə başlamışdır.

Bir neçə kəlmə bu ərazinin tarixi barədə: "Naftalan" sözünün etimologiyası elə bu ərazidə çıxan neftlə əlaqədardır. Rəvayətə görə, şərqdən qərbə gedən ağır dəvə karvanı qədim Azərbaycan torpaqlarından keçirmiş. Karvanda xəstə bir dəvə var imiş. Karvan sahibi bu dəvəni sağaltmaq üçün nə edirsə, mümkün olmur. Dəvə get-gedə zəifləyərək karvanı ləngidirdi. Odur ki, içərisi yağla dolu qara göllər olan ərazidən keçəndə karvan sahibi dəvəni açıb buraxır və karvan yoluna davam edir. Aradan xeyli keçdikdən sonra karvan geri dönəndə insanlar həmin göllərin ətrafında sağlam bir dəvənin olduğunu görürlər. Məlum olur ki, dəvənin məlhəmi həmin yağlı göllər olub. Bundan sonra həmin ərazidən keçənlər bu qara rəngli yağdan aparaq yaraların sağalması üçün istifadə edirlər. Hətta Naftalan neftinin müalicəvi əhəmiyyətini bilən xüsusi adamlar onu tuluqlara doldurub dəvə karvanı ilə müxtəlif ölkələrə apararaq satırlarmış. Naftalan (neft alan) adının yaranmasının da elə buradan qaynaqlandığı ehtimal olunur.

XIX əsrin axırlarında - Azərbaycanda sənaye neftinin çıxarılmasının sürətli inkişafı dövründə, yəni 1892-ci ildə alman mühəndisi Y.İ.Eger ilk dəfə bu ərazidə neft çıxarmaq üçün quyular qazdırmışdır. Hətta o, Naftalan neftindən maz almaq üçün burada kiçik zavod da tikdirmişdi. Həmin zavodda "Naftalan" və "Kojelon" adlı dərman preparatı da hazırlanaraq Amerikaya, İngiltərəyə, Hollandiyaya və digər ölkələrə satılırdı. Tarixi faktlardan məlumdur ki, 1904-1905-ci illər rus-yapon müharibəsi zamanı əsir düşən yapon əsgərlərinin təcili yardım çantalarında naftalan mazı ilə dolu qablar aşkar edilmişdir. Alman dermatoloqu P.P.Unnanın 1903-cü ildə dediyi bir fikir bu baxımdan daha maraqlıdır: "Kim naftalana malikdirsə, onun hər şeyi var".

1920-ci ildə Azərbaycanın neft sənayesi inkişaf etdikcə Naftalan neftinin qazma yolla çıxarılmasına başlanılmış və 1928-ci ildə ilk dəfə olaraq neftin müalicəvi əhəmiyyətinin öyrənilməsinə başlanılmışdır. 1938-ci ildə Azərbaycan Elmi-Tədqiqat Tibbi Bərpa və Təbii Amillərlə Müalicə İnstitutu Naftalan Eksperimental laboratoriyası yaradılmış və tədqiqat işlərinə başlanılmışdır.

Naftalan kurortunun əsas inkişafı isə 1970-1990-cı illərə təsadüf edir. Həmin dövrlərdə Azərbaycanın bu kurort şəhəri daha da inkişaf etmiş, böyük şöhrət qazanmışdı. Şəhərin inkişaf etdirilməsi üçün bir neçə hökumət qərarının icrası nəticəsində qısa vaxt ərzində onun şöhrəti bütün Sovetlər birliyinə yayılmış və Naftalana müalicə üçün gələnlərin sayı durmadan artmışdır. O illər ümummilli lider Heydər Əliyevin diqqət və qayğısı ilə Naftalan şəhərində yeni xiyabanlar salınmış, çoxmərtəbəli yaşayış binaları tikilmiş, hava limanı istifadəyə verilmişdir. Lakin 1988-1993-cü illərdə erməni təcavüzü nəticəsində Azərbaycanın siyasi, iqtisadi və sosial həyatında baş verən proseslər Naftalanda da bir çox problemlər yaratmışdır. Nəticədə Mərkəzləşdirilmiş Kurort Birliyinin fəaliyyəti pozulmuş və sanatoriya-kurort müalicəsinə gələnlərin sayı kəskin şəkildə aşağı düşmüşdür.

1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində digər sahələr kimi, turizmin inkişafına da ciddi diqqət yetirilmişdir. Sahibkarlara böyük imkanlar yaradılmış və qısa vaxt ərzində Naftalanda 350 nəfərlik "Şəfa vannaları", "Naftalan Müalicə və Sağlamlıq Mərkəzi", "Möcüzəli Naftalan" və "Sehrli Naftalan" MMC-lər fəaliyyətə başlamışdır.

Prezident İlham Əliyevin 2008-ci ilin mart ayında Naftalan şəhərinə səfəri şəhərin həyatında yeni səhifə açdı. Həmin səfərdən sonra Naftalan kurortunun bərpası istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilməyə başlandı. Regionların 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı və Azərbaycanda kurortların 2009-2018-ci illərdə inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq Naftalan kurort şəhərinin yenidən qurulması ilə bağlı bir sıra işlər görüldü. Şəhərin infrastrukturundan tutmuş əhalinin sosial problemlərinin həllinədək kompleks işlərə start verildi. Magistral və şəhərdaxili qaz, istilik xətləri yenidən çəkildi, yeni qazanxanalar tikildi, elektrik təchizatı, su və kanalizasiya sistemi yenidən quruldu. Eləcə də Naftalandan Bakı-Gəncə magistralına gedən yolda əsaslı təmir işləri aparıldı, şəhərdə yeni park və xiyabanlar salındı, yolların və küçələrin işıqlandırılması üçün müasir elektrik dayaqları quraşdırıldı, bütün binaların fasadları üzləndi. Ən əsası, Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü nəticəsində ata-baba yurdlarından didərgin düşərək Naftalanın müalicə ocaqlarında məskunlaşan məcburi qaçqın və köçkünlər Goranboy ərazisində salınmış yeni şəhərciyə köçürüldü və həmin müalicə korpusları əsaslı şəkildə yenidən quruldu. Bir sözlə, qısa vaxt ərzində Naftalanın siması başdan-başa dəyişdi.

Naftalan şəhəri inkişaf etdikcə müalicə üçün bura gələn yerli və xarici qonaqların da sayı artır. Bu gün Naftalanın dünyanın inkişaf etmiş kurort şəhərləri ilə geniş əlaqələri var. 2011-ci ildə Naftalan şəhəri ilə Fransanın Leql şəhəri qardaşlaşmış və bu münasibətlə Naftalan şəhər rəhbərliyi həmin şəhərdə olmuşdur. Səfər zamanı Naftalan Şəhər İcra Hakimiyyətinin başçısı Natiq Aslanov ilə Leql şəhərinin meri Tyeri Pino arasında qardaşlaşma barədə niyyət protokolu imzalanmışdır. Bu münasibətlə Azərbaycan bayrağı meriyanın qarşısında digər qardaşlaşmış şəhərlərin bayraqları ilə bir sırada asılmışdır. Bundan əlavə, Naftalan İtaliyanın Pozitano, Rusiya Federasiyasının Yessentuki və Polşanın Uneyov kurort şəhərləri ilə də əməkdaşlıq edir. Naftalanın tanınmış qonaqları arasında Rusiya Federasiyası Dağıstan Respublikasının başçısı, Kolumbiyanın Azərbaycandakı müvəqqəti işlər vəkili, Litva Bələdiyyələri Assosiasiyasının bir qrup nümayəndəsi, qardaş Türkiyə Cümhuriyyətinin Gəncədəki baş konsulu və başqaları var.

Hazırda Naftalanda dünya standartlarına cavab verən çoxlu sayda müalicə mərkəzləri fəaliyyət göstərir. Altımərtəbəli "Chinar hotel & SPA Naftalan", eləcə də beşmərtəbəli "Qaşaltı" və "Qarabağ" istirahət və sağlamlıq mərkəzlərində yaradılan şərait hər cür müalicə və istirahət üçün təminat yaradır. Məhz bunun nəticəsidir ki, 2015-ci ildə Naftalana gələn yerli və xarici turistlərin sayı 16 min nəfəri keçib. Bu, son 5 ildə 6 dəfə artım deməkdir. Ötən müddət ərzində Naftalana Rusiya Federasiyası, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Ukrayna, Latviya, Almaniya, Türkiyə, Kanada, İsrail, Polşa, Fransa, İspaniya, İtaliya, Yaponiya, Çin, Dominikan, Birləşmiş Ərəb Əmirlikləri və digər ölkələrdən 3 mindən artıq xarici qonaq gəlmişdir.

Dünya iqtisadiyyatında baş verən böhran, neftin dəfələrlə ucuzlaşması, eləcə də manatın devalvasiyası Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib. Belə bir çətin şəraitdə dövlət büdcəsinə göz dikməyən şəhərlərdən biri Naftalandır. Bu, həyata keçirilən məqsədyönlü tədbirlər, xüsusilə turizmin inkişafı nəticəsində mümkün olmuşdur.

Hazırda Naftalanda yay turizmi üçün hazırlıqlar başa çatmaq üzrədir. Bunun üçün sanatoriya və sağlamlıq mərkəzləri, infrastruktur yenidən nəzərdən keçirilir, çatışmazlıqlar aradan qaldırılır. Naftalanlılar bilirlər ki, artıq xarici ölkələr Azərbaycanı təkcə yanacaq nefti kimi deyil, eyni zamanda müalicəvi neftin vətəni kimi də tanıyırlar.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***